**44 günlük Vətən müharibəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli və yenilməz ordusunun parlaq qələbəsi ilə başa çatdı. Bu şanlı Qələbə Azərbaycanın hərb tarixində yeni bir səhifə açdı. Bu müharibədə rəşadətlə döyüşən, düşməni göz açmağa qoymayan şanlı Azərbaycan Ordusunun şəxsi heyəti öz mübarizliyi, vətənpərvərliyi, qələbəyə olan inamı ilə yenilməzlik simvoluna çevrildi. Vətən oğulları igidliyin, cəsurluğun, qorxmazlığın yeni nümunələrini yaratdılar. Düşmənin 30 il ərzində qurduğu hərbi istehkamlar, topladığı minlərlə döyüş texnikası və canlı qüvvəsi müzəffər Azərbaycan Ordusu tərəfindən məhv edildi. Tarixi Qələbədə 2914 Vətən övladı şəhidlik zirvəsinə ucaldı, onlarca hərbi qulluqçumuz itkin düşdü, min nəfər isə yaralanaraq sağlamlığını itirdi və qazi oldu.**



# Şuşanın şəhid fatehi

Belə oğullardan biri də Şuşa fatehi, Şuşa şəhidi Cavid Şaban oğlu Əliyevdir. Cavid 1996-cı il mayın 10-da Tovuz rayonunun Qəribli ərazi vahidliyinin Almalıtala kəndində anadan olub. 2013-cü ildə şəhid C.Abdullayev adına Ağbaşlar kənd tam orta məktəbini bitirib. Elə həmin il də Tovuz İqtisad Kollecinə qəbul olunaraq tələbə adını qazanıb. 2014-2016-cı illərdə Ağdam rayonundakı "N" saylı hərbi hissədə müddətli hərbi xidmətdə olub. Hərbi xidmət müddətində nümunəvi əsgər olaraq döyüş texnikasından, müxtəlif çaplı atıcı silahlardan bacarıqla istifadə etməyi öyrənib. Ordudan qayıtdıqdan sonra təhsilini başa vurub. Bakı şəhərində tikinti və reklam şirkətlərində və digər mövsümi işlərdə çalışıb. Qazancı ilə ata-anasına, qardaşlarına və bacısına maddi dəstək olub. Orta məktəbdə oxuduğu illər, ordu həyatı onun Vətənə, xalqına, ailəsinə olan sevgisini daha da alovlandırıb. Birinci Qarabağ müharibəsində məğlubiyyətimiz, Şuşanın, bütöv Qarabağın işğalı, Xocalı soyqırımının törədilməsi onun həyata baxışlarını, düşüncələrini büsbütün dəyişib. Cavidin tez-tez öz otağına çəkilməsini, atası, əmiləri ilə söhbəti zamanı Qarabağ, Şuşa, Xocalı soyqırımı barədə suallar verməsini, torpaqlarımızın nə vaxt azad olunacağı barədə narahatlığını onun Vətən sevgisi, yurda, torpağa bağlılığı ilə əlaqəli olduğunu anlayır və onu sakitləşdirməyə çalışırdılar. Cavid könüllü cəbhəyə yollanandan sonra məlum olub ki, o hələ orta məktəbdə oxuduğu illərdə Qarabağ albomu tərtib edərək orada öz düşüncələrini yazıb, Qarabağa, Xocalı soyqırımına, Şuşaya həsr etdiyi şeirləri toplayıb və bunu evdəkilərdən gizli saxlayıb...

12-16 iyul Tovuz döyüşləri, general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və 5 əsgərin şəhid olması Cavidin vətənpərvərlik eşqini, Vətən sevgisini, düşmənə nifrətini daha da alovlandırdı və bir gün atası və əmiləri ilə söhbət zamanı dedi ki, bu torpağı, bu Vətəni qorumaq hər birimizin müqəddəs borcudur. Əgər Ali Baş Komandan torpaqlarımızı işğaldan azad etmək üçün səfərbərlik elan etsə mən də könüllü orduya yazılacam. Və o gün gəldi, Cavidin illərlə gözlədiyi arzusu gerçəkləşdi.

27 sentyabr xalqımızın yaddaşından, hafizəsindən, hərb tarixindən silinməyəcək. 32 il səbr edən, dözüm göstərən, torpaqları işğal altında olan Azərbaycan xalqı, dövləti və ordusu bir andaca səfərbər oldu, yumruq kimi birləşdi. Düşmənin cavabının yalnız müharibə, savaş olduğuna qərar verdi və illərdir işğal altında qalan torpaqlarımızı azad etmək arzusu ilə Azərbaycan Respublikası Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsinin başlandığını elan etdi. Azərbaycanın haqq müharibəsi başlayan andan xalqın hər bir fərdinin qəlbi cəbhə ilə döyünürdü.

Həmin günü Cavid də səbirsizliklə gözləyirdi... Axı, o, Tovuz döyüşlərindən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz rayon şöbəsinə könüllü olaraq cəbhəyə getmək üçün müraciət etmişdi. Döyüşlər başlayan gün Cavidə də döyüş bölgəsinə yollanmaq üçün məktub-bildiriş gəldi. Cavidin atası Şaban Əliyev deyir ki, həmin gün Cavidin sevinci yerə-göyə sığmırdı, anası ilə, mənimlə, qardaşları və bacısı ilə deyib-gülür, sanki, toya hazırlaşırdı... "Ata, mənə inan, tezliklə Qarabağı işğaldan azad edəcəyik. Şuşanı, Xarıbülbülü, Şuşanın dağlarını görəcəyəm, oradan sizə şəkillər göndərəcəm. Erməni faşistlərindən şəhidlərimizin, Xocalı soyqırımının, Qarabağın, Şuşanın qisasını alacağıq". O, bu sözləri deyərək hamımızla vidalaşdı. Bir də o yadımdadır ki, gedəndə dönüb başı dumanlı dağlara, ömrün payızını yaşayan sarı, al-qırmızı don geyinmiş meşələrə baxdı və maşına tələsdi. Axı işğal altında olan Şuşa kimi incimiz gözləyirdi Cavidi...




Hərbi çağırış məntəqəsindən Cavidi təlim keçmək üçün "N" saylı hərbi hissəyə göndərdilər. Cavidin verilən tapşırıqları yerinə yetirmək əzmini, təcrübəsini, dəqiq nişançılığını görən komandiri onu xüsusi təyinatlı bölüyə qəbul etdi. Onun döyüş yolu Füzuli cəbhəsindən başlandı.

Elə ilk həmlə döyüşlərində böyük şücaət göstərdi Cavid, qəhrəman kimi döyüşdü. Onlarca ermənini dəqiq və sərrast atəşlə məhv etdi. Lazım gələndə həyatını təhlükəyə ataraq əlbəyaxa döyüşə də atıldı. Döyüş dostları, komandirləri onu "Snayper Cavid" deyə çağırırdılar. Ermənilərin 30 ildə qurduğu istehkamları yarmaq, düşmənin canlı qüvvəsini məhv etmək tapşırığı alan xüsusi təyinatlılar Füzulini, rayonun yaşayış məntəqələrini bir-birinin ardınca azad etdikcə ermənilər texnikanı, silah-sursatı, hətta geyimlərini belə ataraq qaçmağa başladılar. Tezliklə Füzulinin və Hadrutun yaşayış məntəqələri azad olundu. Gecə-gündüz bilməyən Cavid və döyüş dostları Şuşanın Daşaltı və digər kəndlərini işğaldan azad etdilər. Şuşa uğrunda gedən qanlı döyüşlərə atıldılar. Cavid və döyüş dostları Çoban Əliyev, Təbriz Hüseynov, Nəsrəddin Cəfərov, Məharət Əhmədov və adlarını bilmədiyimiz onlarca igidlərimiz ölümün gözünə dik baxaraq qəhrəman kimi döyüşürdülər. Erməni birləşmələri tərəfindən güclü müdafiə olunan Şuşadakı mövqelərə yaxınlaşmaq o qədər də asan deyildi. Cavid snayper silahı ilə ermənilərin bir neçə döyüş mövqeyini sərrast atəşlə susdurdu. 20-dən çox erməni xüsusi təyinatlısını məhv etdi. Əlbəyaxa döyüşdən qorxan erməni xüsusi təyinatlıları mövqelərini tərk edərək qaçmağa başladılar. Cavid və döyüş dostları açıq döyüşə atıldılar. Bu döyüş onun son döyüşü oldu. Cavid erməni snayperinin gülləsinə tuş gəldi. Güllə alnından dəymişdi. Döyüş dostları onu atəş altından çıxarmağı bacarsalar da, artıq gec idi, Cavidin son nəfəsində dediyi sözləri döyüş dostları heç zaman unutmayacaqlar : – "Bizimkilərə zəng edin, deyin ki, hər şey yaxşıdır, artıq Şuşanı almışıq..."

...Cavidin şəhid olduğundan ailəsi noyabrın 10-da xəbər tutdu. Şuşa fatehlərindən biri – Şuşa şəhidi Cavid Əliyev 16 noyabr 2020-ci ildə Tovuz rayonunun Almalıtala kəndində torpağa tapşırıldı. Tovuz eli hələ belə izdiham görməmişdi. Hamı cəsur döyüşçünü son mənzilə yola salırdı. Şəhidin məzarı üstünə Tovuz rayon İH, Tovuz ziyalıları, kənd camaatı, təhsil aldığı məktəbin müəllim və şagirdləri, Müdafiə Nazirliyinin, döyüşdüyü ordunun şəxsi heyəti adından əklillər qoyuldu. Döyüş dostları Şuşa şəhidini yaylım atəşi ilə son mənzilə yola saldı.

Cavidin atası Şaban Əliyevin dediklərindən: - "Cavid ailəmizin sonbeşiyi idi, təmiz ürəkli, olduqca mərhəmətli və xeyirxah bir oğul idi. Qarabağı, Şuşanı çox sevirdi. Bu mövzuda danışanda kövrəlirdi, döyüşə gedəndən sonra bildik ki, hələ orta məktəbdə oxuduğu illərdən Qarabağ albomu düzəltdirmiş. Albomda Qarabağa, Xocalı soyqırımına, Şuşaya həsr etdiyi şeirlər, xatirələr yer alırdı. Tovuz döyüşlərindən sonra mənə dedi ki, müharibə başlasa mən də döyüşə gedəcəm, torpaqlarımızı azad etməliyik. Dediyi kimi də etdi. Qəhrəman kimi döyüşdü və Vətən uğrunda şəhid oldu.

Anası Səlminaz Əliyevanın dediklərindən: - "Mən bir ana kimi oğlumla fəxr edirəm, igidliklə, mərdliklə döyüşüb. Alnından vurularaq, Şuşada şəhidlik zirvəsinə ucalıb, Allah bütün şəhidlərimizə rəhmət eləsin. İndi mən tək Cavidin yox, 3000-ə yaxın Vətən uğrunda canından keçmiş qəhrəman oğulun anasıyam. Vətən sağ olsun. Şəhid anası kimi, ailəmizə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm".

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə igid döyüşçü Cavid Şaban oğlu Əliyev ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Medallar təntənəli surətdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin adından şəhidin ailəsinə təqdim olunub.

Şərəfli döyüş yolu keçmiş, Şuşada şəhidlik zirvəsinə ucalan Cavid Əliyevin xatirəsi doğulub boya-başa çatdığı Tovuz rayonunda əziz tutulur. Təhsil aldığı Ağbaşlar kənd tam orta məktəbində, Tovuz İqtisad Kollecində şəhidin döyüş yolunu əks etdirən guşə yaradılıb. Qəribli kənd ərazi vahidliyinin mərkəzində "Şəhid Cavid Bulağı" kompleksi tikilib.

Rahat uyu, şəhidim! Sənin qəhrəmanlığın, Şuşa uğrunda, Qarabağın azadlığı uğrunda tökülən qanın yerdə qalmadı. Döyüş dostların sənin arzularını gerçəkləşdirdi. Qarabağ, Şuşa işğaldan azad edildi.

**Dilman MUSAYEV**